**UOT: 338.43, 338.45, 663, 664**

# RƏQABƏTƏDAVAMLI AQRAR EMAL SƏNAYESİNİN FORMALAŞDIRILMASI AMİLLƏRİ

**Zakir Qəşəm oğlu Quliyev, i.ü.f.d.**

***Bakı Biznes Universiteti***
***e-mail: zakirquliyev@inbox.ru***

***Xülasə***

*Mövcud şəraitdə dünya iqtisadiyyatında rast gəlinən əlverişsiz tendensiyaların mənfi təsirini minimum zərərlə dəf etmək üçün ölkə iqtisadiyyatında rəqabət imkanlarını artıra biləcək rıçaqlardan istifadə labüd hala çevrilmişdir. Məqalədə rəqabətədavamlı aqrar emal sahəsinin formalaşdırılması məsələlərinə baxılır. Göstərilir ki, ölkə iqtisadiyyatının yeni inkişaf mərhələsində aqrar-emal sənayesinin strukturunun möhkəmləndirilməsinə və inkişafına tam olaraq nail olunarsa, respublikada rəqabətqabiliyyətli məhsul istehsalı intensivləşər, xüsusilə dünya bazarlarında geniş tələbatın olduğu ekoloji cəhətdən təmiz məhsulların istehsalına və ixracına əlverişli zəmin yaranar. Eyni zamanda hazırda yaranmış iqtisadi vəziyyət qeyri-neft sektorunun mühüm sahələrindən hesab olunan aqrar emal sektorunun dayanıqlı inkişafının təmin olunması istiqamətində əsas məsələlərdən biri kimi məhsul istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi üçün xammal müəssisələri ilə emal müəssisələri arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsini tələb edir.*

***Açar sözlər:*** *emal sənayesi, kooperasiya, inteqrasiya, istehsal infrastrukturu, rəqabət, ixrac.*

## Giriş

Müstəqil Azərbaycan Respublikasında aqrar sahənin və aqrar-emal müəssisələrinin inkişafı ümummilli lider Heydər Əliyevin ölkəyə ikinci dəfə rəhbərliyi dövründən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Belə ki, aqrar sahənin bazar münasibətlərinə keçməsi və kompleks inkişafına yönəldilmiş qanunlar toplusunun qəbul edilməsi, bəzi qanunların yenidən işlənməsi və təkmilləşdirilməsi bu bölmə ilə sıx əlaqədə olan aqrar-sənaye müəssisələrinin də yeni inkişaf mərhələsinə daxil olmasının əsasını qoymuşdur. Sonrakı illərdə bu müsbət tendensiya ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilmişdir. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramına müvafiq olaraq həm aqrar sahə, həm də onun xammalını emal edən sahələr əsasən bərpa olunmuş və inkişaf etmişdir [2].

Lakin son illər dünyanın iqtisadi konyunkturasında baş vermiş böhran meyilləri miqyasını genişləndirərək bütün milli iqtisadiyyatlara nüfuz etmişdir. Analoji vəziyyətin qarşısının alınması respublikamızda qeyri-neft sektorunun strateji sahələrindən hesab olunan aqrar sahənin dayanıqlı

inkişafının təmin olunması istiqamətində əsas məsələlərdən biri kimi məhsul istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi üçün xammal müəssisələri ilə emal sənayesi arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsini zərurətə çevirmişdir.

Qeyd etmək lazımdır ki, son iyirmi ildə yeni yaradılan təsərrüfatçılıq formaları arasında istehsal və iqtisadi münasibətlərin formalaşması prosesi aqroemal sferasında fəaliyyət göstərən məhsul istehsalı və satışı ilə məşğul olan sahələrə təsir göstərsə də, hələ ki, sahə üzrə mövcud olan potensial imkanlardan tam olaraq istifadə olunduğunu söyləmək olmaz. Müasir şəraitdə "rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi tələb olunur" [1].

### Aqrar sahədə xammal istehsalı və emal sənayesinin tarazlı inkişafının rolu

Sosial səciyyəli əhəmiyyət daşıyan aqroemal sənayesi geniş fəaliyyət sahəsini əhatə edir. Bu fəaliyyət sahəsinin sosial xüsusiyyətləri istehsal olunan məhsullarının, ərzağa olan tələbatın ödənilməsi və insanların həyat fəaliyyətinin təmini ilə xarakterizə olunur. Aqrar emal sənayesinin inkişafı nəticə etibarilə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi imkanlarının artırılmasında mühüm rol oynayır.

Bazar münasibətlərinin inkişafının müasir mərhələsində aqrar emal məhsulları istehsalı mikro və makro əhəmiyyət kəsb edən iqtisadi və sosial problemlərin həllinə xidmət etməlidir. O cümlədən:

- *əhalinin ərzaq təminatı yaxşılaşdırılmalı və milli səviyyədə ərzaq təhlükəsizliyi təmin olunmalı;*
- *aqrar emal sənayesinin xammala olan ehtiyacı üstün olaraq yerli istehsal hesabına ödənilməli;*
- *aqrar-emal sənayesində məşğulluq səviyyəsi yüksəldilməli və s.*

Hazırki şəraitdə aqrar-emal sənayesinin xammal təminatçısı olan istehsalçılar sərbəst olaraq istehsal etdikləri əmtəələri satmaq üçün alıcılar seçmək, habelə məhsulun çeşidini və miqdarını təyin etmək imkanına malikdirlər. Lakin yeni emal sahələri ilə xammal istehsalçıları və xidmət obyektləri arasında iqtisadi əlaqələr dövrün tələblərinə tam olaraq uyğun fəaliyyət göstərmirlər. Ən başlıcası isə mövcud çatışmazlıqlar istehsal və emal sahələrinin inkişafı üçün çətinliklər yaradaraq aqroemal sahəsinin səmərəli inkişafına mənfi təsir göstərir.

Müasir dövrdə aqrar emal sənayesinin inkişafına təsir göstərən əhəmiyyətli məqamlardan biri kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal sənaye müəssisələri arasında mövcud inteqrasiya əlaqələridir. Ümumiyyətlə, inteqrasiya əlaqələri istehsal zəncirində qarşılıqlı əlaqədə olan mərhələlərin birləşməsi, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və istehlakçılara çatdırılmasını təmin edən mürəkkəb bir prosesdir. İnteqrasiya əlaqələri məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dərinləşməsini əks etdirən və onlarla qarşılıqlı əlaqəyə malik proses olmaqla bərabər, eyni zamanda istehsalın son nəticələrinə təsir göstərən bir amilidir [5].

İnteqrasiya əlaqələri son məhsul istehsalında emaledici sənayenin inkişaf təsirini gücləndirir. Bunun nəticəsində istehsalın texniki səviyyəsinə, xammalın keyfiyyətinə və təchizatın ahəngdarlığına qarşı tələblər artır, xammal istehsalı ilə məşğul olan təsərrüfatlarla emaledici sənaye müəssisələri

arasında birbaşa müqavilə əlaqələri keyfiyyətcə yeni pilləyə qalxır. İnteqrasiyaya girən müəssisə və təsərrüfatlarda əmək və vəsaitdən, material ehtiyatlarından istifadənin mövsümlüyü azalır, əmək məhsuldarlığı yüksəlir, onların iqtisadiyyatı möhkəmlənir. Bunun nəticəsində inteqrasiyaya girən sahələrdə istehsalın inkişafına və sosial tədbirlərin həll edilməsinə real şərait yaranır ki, bu da nəticədə səmərəliliyə bilavasitə təsir edir. İstehsalın optimal həcmdə ixtisaslaşdırılmasına, torpaqdan daha məqsədəuyğun istifadə edilməsinə, əkin sahələrinin strukturunun təkmilləşdirilməsinə, meyvə-tərəvəz anbarlarından, sair anbar və soyuducu qurğulardan istifadə olunmasına, itki və tullantıların azaldılmasına şərait yaranır [5, s. 280].

Qeyd edilənlər nəzərə alınmaqla ölkədə mövcud olan təsərrüfat subyektlərinin, o cümlədən ailə kəndli təsərrüfatlarının iqtisadi göstəriciləri təhlil edilməlidir. Torpaq sahəsinin həcminin və mal-qara sayının əsas göstərici kimi götürülməsi təsərrüfatların ölçülərinin düzgün müəyyən edilməsinə imkan yaradır. Bu problemin optimal səviyyədə həlli öz növbəsində aqroemal müəssisələrinin ölçülərinin optimal olaraq müəyyən edilməsi və səmərəli yerləşdirilməsi probleminin həllində başlıca rol oynaya bilər. Lakin qeyd etmək lazımdır ki, aqrar sahədə bu çatışmazlığın öz həllini tapmaması mövcud olan imkanlardan səmərəli və məqsədyönlü istifadə olunmasını çətinləşdirir [8, s. 391].

Aqrar sahə məhsullarının tədarükü, emalı və satışı ilə məşğul olan sahələr arasındakı qarşılıqlı əlaqə və asılılıqlar iqtisadi mexanizmin təkmilləşdirilməsi, qiymət, iqtisadi stimul və maddi maraqla bağlıdır. Ona görə də, həmin iqtisadi amil və şərtlər elə təşkil edilməlidir ki, onlar istehsal olunan məhsulların vaxtında və keyfiyyətlə tədarükünə, onların emalının və satışının səmərəli təşkilinə hər bir müəssisə və kollektivdə maraq yaratsın. Ona görə də, məhsulların satışına və istehsal resurslarının alınmasına dair qiymətlər elə müəyyən edilməlidir ki, onun səviyyəsi iştirakçı tərəflərin mənafeyini təmin etsin. Bu zaman müqavilə qiymətlərindən istifadə oluna bilir. Həmin qiymətlərin səviyyəsi isə düzgün əsaslandırılmalıdır.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı sahibkarlarının istehsal etdikləri və emal müəssisələrinə satdıqları məhsulların bir çox hallarda qiymətlərinin çox aşağı səviyyədə müəyyən edilməsi ilə əlaqədar məhsul satışından daxil olan pul gəliri onun maya dəyərini ödəmir. Beləliklə, istehsalçı fəaliyyətini zərərlə başa vurur. Bu baxımdan, istehsal, tədarük, emal və satış təşkilatları arasında iqtisadi əlaqələri həyata keçirən qiymətqoyma mexanizmi müasir dövrün tələbləri səviyyəsində təşkil edilməlidir. Əksər hallarda müqavilə qiymətləri təxminən müəyyənləşdirilir, qiymətlərin səviyyəsi elmi əsaslandırılmış hesablamalarla dəqiqləşdirilmir. Bir qayda olaraq, qiymətlər tez-tez dəyişdirilir. Nəticədə, emal müəssisəsi istehsalçıdan və ya tədarük təşkilatından aldığı məhsulun dəyərini vaxtında ödəyə bilmədiyindən istehsalçının və həm də, tədarük təşkilatının iş fəaliyyəti pozulur. Eyni zamanda, son məhsulun aşağı keyfiyyətdə istehsalına görə satış təşkilatı da lazımi səviyyədə gəlir əldə edə bilmir və öz iqtisadi əlaqələrini səmərəli təşkil etmək imkanını itirir [9]. Çünki kənd təsərrüfatı məhsullarını tədarük edən təşkilatlarla emal müəssisələri və satış orqanları bir-biri ilə sıx əlaqədardır. İnteqrasiya prosesinin güclənməsi məhsul istehsalının artmasına, əmək ehtiyatlarından, əsas vəsaitlərdən, torpaqdan səmərəli istifadə olunmasına, daha çox pul gəliri və mənfəət əldə edilməsinə, sosial problemlərin həllinə şərait yaradır.

Hazırda respublikanın emal sənayesində müəssisələrin illik güclərinin istehsal edilən xammalın vaxtında və itkisiz emal olunması baxımından yetərsizliyi halları mövcuddur. Bununla yanaşı, emal müəssisələrinin istehsal etdikləri məhsulların bir qismi dünya bazarında rəqabət aparma qabiliyyətinə malik olmadığına görə ixrac oluna bilmir. Digər tərəfdən, İxrac olunan məhsulların əksər hissəsinin xammal təyinatlı olması ölkə iqtisadiyyatını böyük miqdarda mənfəətdən məhrum edir.

**Respublikada aqrar emal sənayesinin rəqabət qabiliyyətinin artırılması perspektivləri**

Dünya təcrübəsi göstərir ki, aqrar emal sahəsinin rəqabətədavamlı fəaliyyət mexanizminin təmin edilməsi üçün ilk növbədə mütərəqqi və balanslaşdırılmış formada bazar strukturlarının yaradılması tələb olunur. Bu isə öz növbəsində maliyyə-kredit, qiymət mexanizmlərin yaradılması, uzunmüddətli proqnozlar, vergi, aqrar emal sahəsinin dövlət tənzimlənməsi, səmərəli sığorta sisteminin yaradılmasını, aqroemal sahəsinin inkişafına dövlət yardımının, ixrac əlaqələrinin formalaşdırılmasının və s. bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmasını nəzərdə tutur.

Qeyd edilən problemlərin həlli ilk növbədə aşağıdakılarla bağlıdır:

- *kənd təsərrüfatı sferasında istehsal olunan hər bir məhsulun istifadə istiqamətləri üzrə (daxili istehlaka, emala, ixraca) miqdarı konkret olaraq müəyyən edilməlidir;*
- *istehsalla tədarük, emal, satış və bunlara bilavasitə xidmət göstərən infrastrukturlar arasında yaradılan kooperasiya və iqtisadi inteqrasiya münasibətlərinin inkişaf etdirilməsi istiqamətləri əsas götürülməlidir;*
- *dövlət tənzimlənməsi ardıcıl olaraq təkmilləşdirilməlidir;*
- *dövlətin zəmanətli alışları sayəsində sözügedən bazarın təminatlılığı reallaşdırılmalıdır;*
- *dövlət istehlakının artımı və yerləşdirilən sifarişlərin böyük həcminin bazarın dayanıqlılığına müsbət təsiri qiymətləndirilməlidir;*
- *təsərrüfatlar və sahələrarası mövcud təşkilati-iqtisadi əlaqələr və idarəetmə bazar münasibətləri prinsipləri əsasında nizamlanmalıdır və s. [6, s. 125].*

Rəqabət qabiliyyətinin təmin olunmasında kənd təsərrüfatı istehsalçıları və emalçıları arasında mənafelərin uzlaşdırılması mühüm rola malikdir. İnkişafda olan ölkələrdə idxal məhsulları ilə bərabər şəraitdə rəqabət aparmağın sivil forması kimi yerli istehsalçıların himayə edilməsini zəruri hesab edirlər. Məsələ ondadır ki, dünya bazarında həmin ölkələrin antidempinq və kompensasiya rüsumlarına məsrəfləri bir sıra hallarda gözlənilən nəticələr verir. Zəif təşkilatlanma və modern ticarət infrastrukturunun olmaması rəqabətin tranzaksiya məsrəflərini artırmaqla inkişaf edən ölkələrin daxili istehsalçılara köməyini aktuallaşdırır.

Göstərilənlərlə yanaşı, bir çox ölkələrin təcrübəsində daxili istehsalçıların rəqabət qabiliyyətinin tədricən artması, yüksək məsrəfli proteksionist siyasətə nisbətən daha cəlbedici istiqamət hesab olunur.

Rəqabətədavamlı aqrar emal sənayesinin formalaşdırılması istiqamətində digər mühüm məsələlərdən biri isə dünya standartları səviyyəsində rəqabətqabiliyyətli məhsul istehsalına arzuolunan səviyyədə nail olunmamasıdır. Buna müvəffəq olmaq üçün ilk növbədə istehsal texnologiyalarının yenidən qurulması tələb olunur. Belə ki, xammal istehsalı üçün tələb olunan aqrotexniki, zootexniki, zoobaytar işləri, seleksiya, toxum yetişdirmə, bitkiçilik məhsulları istehsalı üçün torpaq sahələrinin seçilməsi, iqlim şəraitinin düzgün və dəqiq olaraq nəzərə alınması, kadrların,

mütəxəssislərin elmi-texniki tərəqqinin nailiyyətlərinin tələbləri əsasında hazırlanması, bu sahədə tələb olunan texniki vasitələrin yeniləri ilə əvəz olunması vacib məsələlər sırasında yer alır.

Müasir iqtisadi şəraitdə aqrar emal sənayesində istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması istiqamətləri kimi, ilk növbədə aşağıdakıları qeyd edə bilərik:

- *məhsulların qiymət və keyfiyyət dinamikasında sonuncunun üstünlüyünün təmin edilməsi;*
- *haqsız rəqabətin bütün nüanslarını doğuran səbəblərin, istehlak məhsulları bazarında inhisarçılıq cəhdlərinin qarşısını almağa imkan verən iqtisadi mexanizmin formalaşdırılması;*
- *emal sənaye məhsulları istehsalı, resurs təminatı və müvafiq kommersiya qurumlarının qarşılıqlı əlaqələrinin optimal idarə edilməsi [7, s. 656];*
- *aqrar-emal müəssisələrinin regional üstünlüklərinin reallaşdırılması və resurs potensialından optimal istifadə baxımından ixtisaslaşma, sahibkarlıq təşəbbüsləri və bu kimi digər amillərdən istifadəni təşviq edən mexanizmin formalaşdırılması;*
- *aqrar emal məhsulları ticarətində, o cümlədən, mal ehtiyatlarının idarə edilməsi və logistik sistemlərin qurulmasında və s. qabaqcıl xarici təcrübənin fəal tətbiqi;*
- *idxalın əvəzlənməsi prioritetlərinin reallaşdırılması ilə bağlı resurs təminatının iqtisadi-maliyyə mexanizminin təkmilləşdirilməsi;*
- *istehsalın birgə iqtisadi və ekoloji səmərəliliyinin optimal səviyyəsinin əldə edilməsi.*

Hazırda emal müəssisələri tərəfindən istehsal olunan məhsullarının keyfiyyət səviyyəsi, çeşidləri (bir neçə istehsal müəssisəsinin məhsulları istisna olmaqla) tələb olunan standartlara cavab vermir və buna müvafiq olaraq maya dəyəri yüksəlir və məhsulun rəqabət qabiliyyəti aşağı olduğuna görə az məbləğdə gəlir əldə edilir. Bu baxımdan “Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli Fərmanı ilə müəyyən olunmuş vəzifələrin reallaşdırılması, o cümlədən idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək məhsulların dairəsinin müəyyənləşdirilməsi, maya dəyərini təşkil edən xərclərin optimallaşdırılması və istehsal edilən yerli məhsulların qiymətinin azaldılması üçün aqrar emal müəssisələrinə vergi təşviqlərinin verilməsi ilə bağlı məsələlərin həlli mühüm rol oynayacaqdır.

Fikrimizcə, respublikada aqrar emal sahəsinin formalaşdırılaraq inkişaf etdirilməsi üçün yeni investisiya konsepsiyasının hazırlanması məqsədəuyğun olardı. Bu konsepsiya aqrar emal sahəsinin dayanıqlı iqtisadi artımı və xammal istehsalı potensialı ilə emal sahəsi arasında iqtisadi tarazlığın təmin edilməsinə yönəldilməlidir. Yeni investisiya konsepsiyasında başlıca olaraq aqrar sahədə mövcud olan disproporsiyaların aradan qaldırılması yolu ilə səmərəli tarazlıqların yaradılması, iqtisadı rayonların inkişafında tarazlıqların yaradılması, kiçik emal zavodlarının və sexlərin təşkil edilməsi, emal məhsullarının artırılması üçün sahibkarlıq fəaliyyətinin formalaşdırılması və səmərəli stimullaşdırma mexanizmlərinin hazırlanması diqqət mərkəzində durmalıdır.

## Nəticə

Aqrar emal sənayesinin tarazlı inkişafının təmin edilməsi məqsədilə daxili və xarici investisiyaların, ekspertlərin, texnologiya və nou-hauların cəlb edilməsi xammal istehsalçıları ilə sənaye müəssisələri arasında səmərəli əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması respublikada rəqabətqabiliyyətli məhsul istehsalının intensivləşdirilməsinə zəmin yaradacaqdır. Bütün bunlar isə öz növbəsində aqrar emal sənayesinin strukturunun möhkəmləndirilməsinə və inkişafına, dünya bazarlarında geniş tələbatın olduğu ekoloji cəhətdən təmiz məhsulların istehsalına və ixracına dair imkanların artırılmasına təkan verəcəkdir. Qeyd edilən istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi əhəmiyyətli ola bilər:

- aqrar emal sənayesinin inkişafı məqsədilə əsas xammal istehsalı üçün əlverişli torpaq-iqlim şəraiti olan iqtisadi rayonların mövcud potensialından istifadə olunması;
- dünya standartları səviyyəsində emal sənayesi istehsalına nail olmaq üçün mütərəqqi texnologiyaların tətbiq edilməsi;
- xammal istehsal olunan iqtisadi rayonlarda müxtəlif gücə malik emal müəssisələrinin və sexlərin tikilməsi;
- aqrar emal sənayesinin inkişafını sürətləndirmək məqsədilə yerli və xarici investorları təşviq edəcək iqtisadi mexanizmin formalaşdırılması;
- dünya standartlarına uyğun emal sənayesi məhsullarının istehsalını təmin etmək üçün xarici tərəfdaşlarla müştərək müəssisələrin yaradılması və onların təcrübəsindən maksimum səviyyədə yararlanma.

## Ədəbiyyat

1. “Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli Fərmanı. https://president.az/articles/52463
2. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı.
3. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı.
4. “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli Sərəncamı.
5. Quliyev E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: “Elm”, 2013, s. 151.
6. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı: 2005, 280 s.
7. Quliyev E.A. Aqrar iqtisadiyyat. Dərslik 2015, s. 125
8. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı (Monoqrafiya) Bakı: Azərnəşr, 2016, 656 s.
9. Попов Н.А. 2011. Основы рыночной агроэкономики и сельскогоопредпринимательства, 391 с.
10. Wangwe S. (2012) The Role of innovation in Economic Growth and Poverty Reduction REPOA: Research on Poverty Alleviation, s. 34-132

*Ph.D.*, Z.G. Guliyev
Baku Business University

**Factors of formation of competitive agro-processing industry**

*Summary*

*At the present time it is necessary to use levers that can increase the competitiveness of the country's economy in order to counteract the negative consequences of unfavorable trends in the world economy with minimal damage. The article discusses the formation of a competitive agro-processing industry. It is noted that if the strengthening and development of the structure of the agro-processing industry at the new stage of the country's economic development is fully achieved, the production of competitive products will increase, especially in the production and export of environmentally friendly products. At the same time, the current economic situation requires improving economic relations between raw materials and processing enterprises to increase production and improve product quality, which is one of the key issues in ensuring the sustainable development of the agricultural processing sector as an important sector of the non-oil sector.*

***Keywords:*** *processing industry, cooperation, integration, production infrastructure, competitiveness, export.*

*Д.ф.э.н.*, З.Г. Гулиев
Бакинский университет бизнеса

**Факторы формирования конкурентоспособной агроперерабатывающей отрасли**

*Резюме*

*В настоящее время необходимо использовать рычаги, способные повысить конкурентоспособность экономики страны, чтобы с минимальным ущербом противодействовать негативным последствиям неблагоприятных тенденций в мировой экономике. В статье рассматривается формирование конкурентоспособной агроперерабатывающей отрасли. Отмечается, что если укрепление и развитие структуры агроперерабатывающей отрасли на новом этапе экономического развития страны будет полностью достигнуто, производство конкурентоспособной продукции увеличится, особенно в производстве и экспорте экологически чистой продукции. В то же время текущая экономическая ситуация требует улучшения экономических отношений между сырьевыми и перерабатывающими предприятиями для увеличения производства и улучшения качества продукции, что является одним из ключевых вопросов в обеспечении устойчивого развития сектора переработки сельскохозяйственной продукции как важного сектора экономики ненефтяного сектора.*

***Ключевые слова:*** *перерабатывающая промышленность, сотрудничество, интеграция, производство, инфраструктура, конкурентоспособность, экспорт.*